# İşğaldan azad edilmiş ərazilərdə bizi mühüm vəzifələrin həlli gözləyir

***İşğaldan azad edilmiş ərazilərimizdə aparılan sürətli bərpa-quruculuq işlərinin əks-sədasını artıq dünyanın hər yerindən eşidirik. Bədxahlarımız bu faktları qısqanclıq və xəbisliklə qarşılayır, dost və tərəfdaşlarımız isə şahidi olduqları tarixi faktları sevinc və qürur hissi ilə dilə gətirirlər. "İşğaldan azad edilmiş Azərbaycan əraziləri əvvəlkindən daha yaxşı görkəm almaqdadır", "Şuşada modern otel istifadəyə verilmişdir", "Füzuli Beynəlxalq Hava Limanının tikintisindəki sürət "Ginnesin rekordlar kitabı"na düşə bilər" kimi təqdiredici fikirləri isə Türkiyə mətbuatında oxuyuruq.***

Türkiyəli həmkarımız Alxan Kamal yazır: "Mən yaxşı bilirəm ki, Azərbaycan dövlətinin fəaliyyət proqramı həmişə zəngin olub. Amma o da faktdır ki, 44 günlük İkinci Qarabağ müharibəsindən sonra qardaş dövlətin bütün qurumlarının iş qarafiki ikiqat genişlənib, fəaliyyət sahələrinin hamısında milli dövlətçiliyin möhkəmləndirilməsinə xidmət edən, işğaldan azad edilmiş ərazilərin bərpasına zəmin yaradan addımların sayı dəfələrlə artıb. Bir yandan bərpa prosesi sürətlənir, bir yandan sülhə nail olunması üçün qətiyyətli addımlar atılır, digər tərəfdən də bütün beynəlxalq təşkilatların diqqəti erməni vandalizminin nəticələrinə yönəldilir".

Həmkarımız tamamilə haqlıdır. Azərbaycan dövləti ermənilərin 30 il işğal altında saxladıqları torpaqlarımızda törətdiyi vəhşiliklərin və işğaldan azad ediləndən sonra həmin ərazilərdə aparılan bərpa-quruculuq işlərinin miqyasını dünya ictimaiyyətinə olduğu kimi göstərmək üçün nələr etmir? Gah həmin ərazilərə dünyanın bütün qitələrini təmsil edən jurnalistlər aparılır, gah səyyahlar dəvət edilir, gah siyasətçi, diplomat və dövlət rəsmilərinin Ağdama, Şuşaya, Füzuliyə səfərləri təşkil edilir.

Yadımdadır, ötən ay həmin ərazilərə səfər etmiş BMT-nin Ətraf Mühit Proqramının Avropa ofisinin direktoru Bruno Pozzinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Milli Məclisdə görüş keçirilirdi. BMT rəsmisinə Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbə nəticəsində erməni işğalından azad etdiyi torpaqlarda həyata keçirilən bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verilməklə yanaşı, vandal qonşularımızın orada törətdiyi ekoloji faciələrin miqyası da nəzərə çatdırılırdı. Azad olunmuş ərazilərdə aparılan monitorinqlər göstərib ki, yaşayış məntəqələrindəki, bütün evlər, tarixi abidələr dağıdılıb, ağaclar kəsilib, yandırılıb. Bu zonada yetişən nadir ağaclar, bitkilər, meşə landşaftı məhv edilib.

İndi isə orada "ağıllı kənd", "ağıllı şəhər" layihələri çərçivəsində çoxsaylı işlər həyata keçirilir, Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji zonasının" yaradılması ilə bağlı tədbirlər reallaşdırılır. Qonağa eləcə də, ölkə Prezidentinin sərəncamları ilə həmin ərazilərdə yeni infrastrukturun yaradılması, yeni yolların salınması, elektrik enerjisi ilə təminat, yeni hava limanlarının tikilməsi və digər işlər barədə məlumat verilib.

***(ardı 3-cü səhifədə)***

# İşğaldan azad edilmiş ərazilərdə bizi mühüm vəzifələrin həlli gözləyir

*(əvvəli 1-ci səhifədə)*



Bəlkə də parlamentin bir qrup deputatının keçirdiyi bu tədbirin mətbuat üçün o qədər də qabardılmalı xəbər olmadığını deyənlər tapılar. Ancaq cənab Bruno Pozzinin orada eşitdiyi fikirlərə münasibətini yada salsaq, bu tədbirin əhəmiyyətini hamı yüksək qiymətləndirəcək: “Biz həmin əraziləri gəzdik və gördüklərimizdən həm dəhşətə gəldik, həm də heyran olduq. Bizi dəhşətə gətirən o ərazilərin tamamilə viranəyə çevrilməsi idi. Heyran olduğumuz məsələ isə Azərbaycan dövlətinin çox qısa zamanda həyata keçirdiyi bərpa-quruculuq işlərinin miqyası idi”.

Bəli, ermənilər 30 il idi ki, Azərbaycan ərazilərinin 20 faizini talan edir, viran qoyur, xarabazara çevirir və beynəlxalq aləmə car çəkirdilər ki, Qarabağ Ermənistan torpağıdır. Ona görə də dövlət başçımız Ermənistanın himayədarlarından soruşurdu ki, əgər həmin ərazilər ermənilərindirsə, onda nə üçün orada daşı daş üstündə qoymadılar. Kim öz şəhərini, kəndini bu şəkildə viranəyə çevirərdi?

Yeri gəlmişkən, bu il martın 20-də Novruz bayramını Tərtər rayonunun erməni işğalından azad edilmiş Suqovuşan kəndində qarşılayan Prezident İlham Əliyev oradan xalqımıza ünvanladığı təbrikdə demişdi ki, 30 ilə yaxın müddətdə bizim doğma Qarabağımız və Şərqi Zəngəzur ermənilərin əlində idi. Buna son qoyulmalı idi və son qoyuldu: “Biz gördük ki, heç bir danışıqlar, heç bir siyasi addımlar bizi məqsədimizə yaxınlaşdırmır. Biz görürdük və bilirdik, ancaq güclü, daha iradəli olmalıyıq ki, öz haqqımızı qoruyaq, tarixi ədaləti bərpa edək. Azərbaycan dövləti, Azərbaycan Ordusu, bütün silahlı qüvvələrimiz bu tarixi missiyanı 2020-ci ildə yerinə yetirdi. Biz döyüşərək, qan tökərək, şəhidlər verərək doğma diyarımızı erməni işğalından azad etdik və Qarabağa qayıtdıq. Biz artıq burada yerləşmişik, biz buraya qayıtmışıq, doğma diyarımıza qayıtmışıq. Bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər yenidən qurulur, kəndlər yenidən salınır. Əlbəttə ki, bizim əsas vəzifəmiz keçmiş məcburi köçkünləri tezliklə bu doğma diyara qaytarmaqdır”.

Suqovuşan kəndini yada salmağımız həm də abadlıq-quruculuq işlərinin burada da çox geniş vüsət almasıdır. Bu gün Suqovuşanda yaşayış binalarının bərpası, turizm zonalarının yaradılması istiqamətində qətiyyətli addımlar atılır. Yeni idman qurğuları istifadəyə verilir. Dövlət başçımızın da dediyi kimi, bütövlükdə həm Qarabağda, həm Şərqi Zəngəzurda quruculuq, abadlıq işləri planlı şəkildə aparılır. Prezidentin bu istiqamətli tövsiyələri olduqca konkretdir: “Biz elə etməliyik ki, qısa müddət ərzində ancaq böyük səmərə ilə və böyük keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazini yenidən quraq. Çünki mənfur düşmən işğal dövründə bütün şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edib, bütün tarixi abidələrimizi dağıdıb, təhqir edib. Biz isə qurub-yaradan xalqıq. Müharibədən cəmi bir ildən bir qədər çox vaxt keçməsinə baxmayaraq, biz artıq qurub-yaradırıq. Əminəm ki, biz bütün planlara, nəzərdə tutulmuş bütün məqsədlərə nail olacağıq və nail oluruq”.

Həm döyüş meydanlarında, həm siyasi mübarizədə, həm də işğaldan azas edilmiş ərazilərin bərpasında böyük uğurlara imza atan Prezident İlham Əliyevin olduqca möhtəşəm iki dayağı vardır. Birincisi, Heydər Əliyev siyasi məktəbi. İkincisi, 50 milyonluq xalqın inam və etimadı. Bunların isə bir adı var – Azərbaycanın reallıqları.

Reallıq ondan ibarətdir ki, Prezident İlham Əliyev bu gün daha güclü, dövlətimiz isə daha qüdrətlidir. Ona görə də Ali Baş Komandanımızın sözü kəsərli, addımları qətiyyətlidir: “Bugünkü güclü Azərbaycan bütün bu işləri görməyə qadirdir. Siyasi iradə var, iqtisadi güc var, xalqımızın səfərbərliyi var, milli həmrəylik ən yüksək zirvədədir və əlbəttə ki, şanlı tarixi zəfərimiz hər birimiz üçün qürur mənbəyidir. Biz haqlı olaraq fəxr edirik ki, müzəffər dövlətin vətəndaşlarıyıq, ordumuzla fəxr edirik, insanlarımızla fəxr edirik. Bizə bu xoşbəxtliyi yaşadan gənclərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik. Biz Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtmışıq və burada, tarixi torpaqlarımızda bundan sonra əbədi yaşayacağıq”.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***